# ŞAİR ƏSSAR TƏBRİZİ

## *akademik Rafael Hüseynovun düşüncələrində*



*Şahvələd ƏLİYEV*

**Mən "Kredo" qəzetinin baş redaktoru Ə.R.Xələfli ilə uzun müddətdir ki, tanışam və onunla mütəmadi ünsiyyətdə olmuşam. Belə ki, beşinci kitabım ancaq "Kredo" qəzetində çap olunub. Yəni mən 80-ci illərdən bu tarixə kimi onun geniş diapozonlu ədəbiyyatşünas olduğunu dərk etmişəm və ona həmişə qibtə etmişəm. Onunla ilk tanışlığım "Nərgiz" nəşriyyatının direktoru Hidayət Musabəyli (onda mənim iki kitabım bu nəşriyyatda çap olunmuşdu) vasitəsilə olmuşdu. Ə.Xələfli ötən il haqqımda "Həyati obrazlar qalereyası" adlı məqaləsini "Kredo" qəzetində çap etdirdi. Və o məqalədən sonra, o vaxtdan indiki tarixə kimi onunla dostluğumuz həmişə davam etmişdir. Əli Rza Xələfli 24 yanvar 2025-ci ildə mənə bir nüsxə "Kredo" qəzetini verdi və o qəzetdə çap olunmuş "Kəsilməyən kişnərti" esse poemasını oxumağı məsləhət gördü. Mən qəzeti məmnuniyyətlə alıb və onun yazdığı poemanı oxudum. Poema mənim çox xoşuma gəldi və mən ona zəng edib öz təşəkkürümü bildirdim. Qəzeti gözdən keçirəndə qəzetin birinci səhifəsində yazılan akademik Rafael Hüseynovun "Ənənəni sındıraraq davam etdirən" yazısı diqqətimi cəlb etdi. Və o yazını oxumağa başladım.**

**Müəllif 1390-cı ildə şair Əssar Təbrizi haqqında geniş məlumat verərək qəzetin 3 səhifəsini bu şairə həsr etmişdi. Və Əli Rza Xələfli Rafael müəllimin yazdığı məqalənin üstündə dörd sətirdən ibarət bir şeir də yazıb və şeiri də həmin şairə həsr etmişdi. Şeir belədir:**

**Nitqində kəlamında "ol" gücünün əzəli,**
**Ovqatında Nizami, yanğısında Füzuli.**
**Salam olsun adına sözdə yanan aşiqin,**
**Varlığında gül açır ölməz - sözün gözəli.**

**Yeri gəlmişkən, Əli Rza müəllim haqqında öz fikrimi bildirim ki, bu böyük sənətkar, tanınmış ədəbiyyatşünasın çoxcəhətli ədəbi fəaliyyətinə nəzər salanda, onun həyatı, sənətə olan münasibətini xüsusilə qeyd etmək istəyirəm: - O həm şair, həm publisist, həm yazıçı, həm tənqidçi, həm ədəbiyyatşünas, həm də 60-dan çox kitabın müəllifidir. Mənim aləmimdə bundan geniş diapozonlu ədəbiyyat fədaisini həyatda mən, demək olar ki, tanımıram. Eşq olsun sənə, Əli Rza müəllim!**

Mənim əsas məqsədim akademik Rafael Hüseynovun çox dəyərli yazısına diqqətləri bir daha cəlb edim. Qayıdıram Rafael Hüseynovun çox dəyərli yazısına.

Beləliklə, mən fikrimi davam edərək Rafael müəllimin Əssar Təbrizi haqqındakı məqaləni oxumağa başladım. Müəllif bu şair haqqında ətraflı məlumat verərək yazır ki, o, dövrünün tanınmış şairi olmuş, çox sakit həyat şəraitində yaşamış, heç kimlə mübahisə etməyən, heç kimdən bir şey ummayan, təkəbbürlü olmaqdan, lovğalanmaqdan, özünü gözə soxmaqdan uzaq, şahları mədh edərək və onlardan heç bir şey istəməyən şair olmuşdur. Təbrizdə o qədər şair ömür sürüb dünyalarını dəyişiblər ki, ancaq Əssar Təbrizi onların heç birinə oxşamamış və öz sadə, kasıb həyatı ilə yazıb-yaratmışdır. O dövrdə "Müqəddəs üş-şüəra" adında bir qəbirstanlıq Təbrizdə yaranmışdı. Artıq üç əsrdən çox idi ki, o məzarlığa sakinlər el çiynində gedənlər olmuşdu. Bu məzarlıqda hər yetən ölüsünü basdırmazdı. Bu məzarlığın o dövrdə nə bir fərmana ehtiyacı vardı, nə də qazinin hökm etməsi ilə dəfn edilənlər olurdu. Ancaq bir təbrizlinin son mənzilinin bura olmasının zəminini hər kəs həyatı ilə, əməlləri ilə, yazıb-yaratdığı ilə özü qazanmalı idi. Haqqın dərgahına üz tutanların yüzündən, minindən birinə nəsib olurdu ki, burada dəfn edilsin. Əlbəttə, kimin layiq olduğu insanlardan bura düşməyənlər də olurdu. Ancaq bura layiq olmayan adamın dəfninə təsadüf nəticəsində olanlara da rast gəlinirdi.

Əvvəllər burada elə böyüklər, elə müqəddəslər, elə mömin insanlar torpağa tapşırılırdı ki, arıq el iradəsi heç vaxt macal verməzdi ki, o nizam pozulsun.

"Müqəddəs üş-şüəra" qəbirstanlığı artıq ziyarətgaha çevrilmişdi. Burada əbədi rahatlıq tapmış ruhca, çəkicə, miqyasca bir-birinə yaxın olanlar sanki hamısı ilahi cazibəyə əsasən yaxınlarına, yalnız özlərinə uyğun olanları öz yanlarına çəkirdilər.

XIV əsrin bitər-bitməzində duyğuca, fikircə, məsləkcə ona layiq olanların yanına irəliləyən Əssar Təbrizi hələ çox illər qabaqdan öz əməli ilə o, axırıncı evinə - el çiynində gedəcəyinə əmin olmuşdu. Ona görə də, özünə və başqalarına da tövsiyə etmişdi ki, bu fani həyatda heç nəyə və heç kəsə güvənmədən, tamahdan uzaq duraraq yaşamaq lazımdır. Gələcək nəsillər səni gözükölgəli, başıqaxınclı etməsinlər. Sən rəzil, bədxah insanlardan aralı gəzərək, azad yaşayıb və həyatı bu qayda ilə başa vurmalısan.

Gözəl insan, tanınmış akademikimiz Rafael müəllimin Əssar Təbrizi haqqında yazdıqlarına nəzərən bildirmək istəyirəm ki, o sanki, bu zəmanə, bu dövr, bu gün üçün öz divanını yaratmışdır. Onun yazdığı bir şeirə nəzər salaq və görək şair nə deyir.

Əzəl gündən kəc dolanan fələkdə var bu adət,
Nə vermişsə alacaqdır geriyə o, nəhayət.

Çoxlarının başına o, qızıl səpib qoymuş tac,
Sonra isə taxtdan salıb, etmiş çörəyə möhtac.

Dostum, sən də bu zülmkar ruzigara inanma,
Azad yaşa, bu vəfasız fələyə arxalanma...

Əssar Təbrizinin həyatı artıq bitmişdi. Onun necə bir şair olması, necə şəraitdə yaşaması, ac-susuz həyat sürməsi, nə qədər xətir-hörmətə layiq olması, onun haqqında başqalarının nə düşünəcəyi, nə danışacağını əvvəlcədən bilirdi. Və sonda onun nəşi ehtiramla, ən şərəfli bir ünvana "Məqbərət üş-şüəra"ya aparılırdısa, deməli, ömrü bihudə yaşamamışdı.

Deməli, axırda mən belə bir nəticəyə gəlirəm ki, yaxşı filosof, yaxşı şair, yaxşı el ağsaqqalı və ən nəhayət, yaxşı insan heç vaxt unudulmur və heç vaxt da yaddan çıxmır. Buna nümunə şair Əssar Təbrizi olmuşdur.

Xalqın sevimlisi olmaq hər kəsə nəsib olmur, bu sevgini sən qazanmısan, şair, öz əməlinlə.

Ruhun şad olsun - Allahdan sənə rəhmət diləyirik, Əssar Təbrizi! Amin!

Sonda akademik Rafael Hüseynova sonsuz təşəkkürlərimi bildirirəm. Çünki onun bu yazısı bizi insanlığa layiq əməllərə sövq edir.

Əli Rza Xələfli də sağ olsun ki, hörmətli alimin çox dəyərli yazısını "Kredo"da bizə çatdırır.

*14.02.2025*